URAQAN

(EMİN ABDULLAYEV)

# HƏRBİDƏN QEYDLƏR

**MƏQALƏLƏR VƏ HEKAYƏLƏR TOPLUSU**



**URAQAN (Emin Abdullayev)**

# Hərbidən Qeydlər

*Məqalələr və hekayələr toplusu*

Naşir:
**Müşfiq XAN**

Redaktor:
**Vüsal Əlizadə**

Korrektor:
**Gülər Əliyeva**

Texniki redaktor:
**BəxtiYar**

Dizayn və qrafika:
**Tamerlan İsmayılzadə**

**© Uraqan (Emin Abdullayev). Hərbidən qeydlər ©**
**"XAN" nəşriyyatı. Bakı–2018. 168 səh.**

**ISBN: 9021630905474**

@ Hərbidən Qeydlər

@ herbidenqeydler

Abdullayev Emin Munis oğlu 1997-ci ildə Bakıda anadan olub. “Uraqan” təxəllüsü ilə 2014-cü ildən "Yazar.in” saytında hekayə və məqalələrini paylaşmaqdadır.

Affada Futbol Hakimliyi ilə məşğuldur. Bundan əlavə hərbi xidmətdən döndükdən sonra 2018-ci ildən Hədəf Liseyinin İnteraktiv Elm Muzeyində Elmi Bələdçi kimi fəaliyyət göstərir.

Kitab Uraqanın hərbi xidmət müddətində yazmış olduğu qeydlərindən ibarətdir. Hekayələrdə göstərilənlərin real həyatla heç bir əlaqəsi yoxdur. Kitabın içərisindəki bəzi hekayələr müəllifin diliylə çatdırılsa da düşüncələr onun yox, yazmış olduğu obrazların fikir və düşüncələridir. Təxəyyülün məhsulu olmağına baxmayaraq, bu kitabda real həyatımızla bağlı bir çox problemləri əks etdirilir, onların həll yolları təklif olunur.

## Ön söz əvəzi

### *Qurulan xəyallarımız*

Bizi insanlar üzərində qurduğumuz xəyallar yıxar. İnsanlara deyil, məqsədlərə bağlanmalıyıq. Bəzən eyni fikirlər üzərində qurulan böyük bir dünya yaradarıq. Bəzən də böyük bir dünyada kiçik bir fikri yaşadarıq. Fikirlər xəyallardan doğar, məqsədlərə çevrilər. Məqsədlərsə xoşbəxtliyimiz olar. Bizi xoşbəxt edən şey, məqsədə çatmaqdan çox, o məqsədə doğru addımlamağımızdır. İnsanlar bizim məqsədlərimiz deyil və ya hansısa insana sahib olmağı bir məqsəd kimi görə bilmərik. Bizi xoşbəxt edə bilməz. Çox vaxt eyni fikirli insanların eyni məqsədlər üzərində toplaşdığını görərik.

Uşaqlıqdan düşünmüşük ki, biri çıxar qarşımıza bizi xoşbəxt edər. Oysa ki, həmişə öz xoşbəxtliyimizi başqalarında axtarmışıq. Nəyə görə axtarmışıq? Çünki biz xoşbəxt deyilik.

Deyək ki, biri çıxdı qarşına və səni xoşbəxt etdi. Bəs sən onu xoşbəxt edə biləcəksənmi? Özün xoşbəxt deyilsənsə başqasını necə xoşbəxt edə bilərsən? Birinci hər şeyə özündən başlamalıdı insan. Biz çox vaxt özümüzü, öz xoşbəxtliyimizi düşünən bir eqoist oluruq. Ancaq özümüzü fikirləşib yaşayırıq. Fikirlərimiz isə qarın doyuzdurmur. Bəlkə fikirlər ruhumuzu qidalandıra bilər, amma yalnış fikirlər bizi ruhumuzdan və mənliyimizdən uzaqlaşdırar.

Uzaqlaşdıqca özümüzdən qaçarıq, qaçdıqca yorularıq. Sonra nə üçün yorulduğumuzu anlamarıq.

Bura qədər insanlardan, fikirlərdən, məqsədlərdən, xoşbəxtliyimizdən və özümüzdən danışdıq. Ancaq bu beşini birləşdirən bir duyğu var, adı Sevgi. Hansı ki, o olmasa digərlərinin heç bir önəmi qalmaz. Bunu başa düşmək bir il altı ayımı aldı. Amma gec də olsa, başa düşdüm. Başa düşdüm ki, insanları isidən şey, isti bir otaqdan çox, səmimi münasibətlərdir. İnsanları isidən həmin isti otaqda qalmaq yox, birlikdə soyuqda donmağı gözə ala bilməkdi. Başa düşdüm ki, çörəyi dadlı edən təkcə onun duzu xəmiri yox, həm də onu bişirənin əlinin zəhmətidir. O əlin zəhmətinin dəyərini bilməlisən. Həmin zəhməti dəyərləndirə bilməzsə insan, nə dadı bilinər, nə də keyfiyyəti. Yavaş-yavaş anladım ki, əlimizə batan tikanlar deyil, ürəyimizə ilişən tikanlar bizi həmişə narahat edir.

Beləcə, Hərbidən Qeydlərin sonuna yaxınlaşıram. Son kimi yazdığım bu cümlələri siz ilk kimi oxuyursunuz. Bəlkə də sizə lazım olanları irəlidəki səhifələrdə tapacaqsınız. Ola bilsin kitab bitdikdən sonra, əvvələ qayıdıb bu cümlələri bir də oxudunuz. Həyat da belədir. Bizə lazım olan şeyin haralarda olduğunu bilmirik. Çox zaman eyni yerə qayıtmalı oluruq. Əslində isə hər şey çox sadədir. İnsan aldığı dərslərdən nəticə çıxarmalı və düzgün dəyərləndirməlidir.

Ona görə hansı nəticəni çıxaracağınızı və necə dəyərləndirəcəyinizi öz öhdənizə buraxıram.

Xoş mütaliələr…

# *Düşüncələr*

## Həyat şəkillərdən ibarətdir

Həyatımız hər zaman öz əlimizdədir. Onu cənnətə çevirən də bizik, cəhənnəmə çevirən də bizik. Ona istədiyimiz kimi yön verə bilərik, şəkilləndirə bilərik.

Şəkillər...

Həyatımız an etibarı ilə şəkillərdir. Keçmişə dönüb baxdıqda bu şəkillərin bir xatirə olduğunu anlayırıq. İnsanı insan edən də bu xatirələrdir.

Bəs biz keçmişə dönüb baxdıqda hansı şəkilləri görürük, hansı xatirələri yada salırıq? Cənnəti, yoxsa, cəhənnəmi yaşadığımızı düşünürük? Ya hər ikisi bu dünyadadırsa? Yaşadığımız gözəl anlar bizim cənnətimiz, pis anlar cəhənnəmimiz, qabağımıza çıxan yaxşı insanlar mələk, pis insanları şeytan adlandırsaq bir kitabın və ya bir nağılın parçası olduğumuzu anlayarıq. Bəs biz bu nağılın hansı qəhrəmanıyıq? Əsəri yazan bizə hansı obrazı verib? Ruhu verən bizi bizdən qabaq yazıb, yoxsa zəri atıb gedişi sən oyna deyib? Bəlkə də həyatda uğur qazanmış insanlar bu oyunu oynamağı bacaran insanlardı?

Biz kimik? Yaxşı oyunçu, şeytan ya mələk? Biz kimik? Hansısa şəklin bir parçası ya bir kitabın obrazı? Rəsm yoxsa rəssam bizik? Həyatımızın rəsmi çoxdan çəkilib, bizə isə sadəcə onu rəngləmək qalır. Başımıza gələn hər

hadisədə ona rəng verib qiymətləndirən bizik. Əgər hər şeyə qismət deyiriksə, həyatı ağ-qara şəkillərdə yaşamış oluruq. Yox əgər başımıza gələn hər hadisəni dəyərləndirə biliriksə bax onda əsl rəngarəngə çatıb rəssamın bizə nə göstərmiş olduğunu görə bilirik.

Bu cümlələri oxuyub beynini qarışdıra bilərsən. Bəlkə də nə vaxtsa əzilmiş və parçalanmış şəkli beynində qurub, yarımçıq qalmış boşluqları doldura və onu düzəldə bilərsən. Amma düşünmə ki, parçaları birləşdirib düzəltdiyin üçün hər şeyi sən yaratmısan. Xeyr, şəkil əzəldən olub, sadəcə hər şey qarışıb birbirinə və sən o parçalanmış yerlərdə ilişib qalmısan. Sən gec-tez özünə lazım olan hər şeyi tapıb rəsmi tamamlayacaqsan.

## Boş dünya

Bu dünya boşdu. Bütün problemlər, dərdlər, kədər-qəm. Hamısı boş şeydi. Boş bir ev kimidi bu dünya. İçinə nə dolduracağını özün seçərsən. Sevinci, xoşbəxtliyi, istədiyin insanları ora daxil etməyi özün seçməlisən.

Onlar gözəlləşdirər sənin boş dünyanı. Boş ev dediyim sənin qəlbindi. Orda kimləri yaşatmalı olduğunu özün seçməlisən. Bəziləri xoş sözlərlə qapını döyər. Onlar gələr və özləriylə birlikdə nifrət və kədər gətirər. Onlarla yaşamağa məcbur deyilsən. Çıxarmalısan onları beynindən, fikirlərindən və ürəyindən. Bəzən isə onlar özləri çıxıb getmək istər, səni tərk edib gedər. Düz deyiblərmiş ki, gedən kim olursa olsun, qapını bağlamalısan ki, içəridə qalanlar üşüməsin. Çünki, sənin içini isidən onlardı. Onlarsız bu dünya boşdu.

Müdrik qoca deyirdi ki, çıxıb gedən özü qapını bağlayıb getməlidi ki, arxasınca düşüb qapını örtməyəsən. Gedən səni düşünsəydi heç gedərdimi? Mənsə gedəni qapıya kimi ötürərəm. Gedəni boş ver, içəridə qalanlar üşüməsin. Bəzən evinin bağçasına güllər əkərsən. Bağban olan tək bir gülü sevərsən. O gülsüz sənin evinin ətri olmaz. Bağçanda gözəllik olmaz. Gözəl olana qiymət verilməz, qiymət verdiyimiz insanlar gözəlləşər. Qiymət verdiyimiz insanlar

gözəlləşdirər içimizi. Ağ-qara dünyamıza nur verər, rəngarəngə boyanar hər tərəf…

Ağlın yenə çıxıb gedəni düşünür. Gözlərin yenə onu axtarır. Özü getsə də səsi getmir qulağından. Bəlkə də bütün problemlər bundadı. Bizi sevəni görməz gözümüz, bizə dəyər verənə yox, bir başqasına verərik dəyər. Halbuki nə vaxtsa olmaya bilər yanındakı insanlar. Bəzi insanların yoxluğu onların dəyərini artırar. Yanında ikən anlamazsan əhəmiyyətini. Yoxluğunda başa düşərsən sənin üçün nələr etdiyini. Gec anlayarsan onlara nə qədər ehtiyac duyduğunu.

Öz dünyanı təmiz saxlayacaqsan. Çöldən tozlu görsənən evə heç kim girmək istəməz. Baxan hər bir kəs səndə bir gözəllik var deyəcək. Səbəbini bilməsələr də xoş olacaq sənin evinə baxmaq, sənin qəlbinə qonaq gəlmək, orada yaşaya bilmək. Sənsə bu zaman çox yaxşı biləcəksən ki, boş dünyanı dolduran gözəlliklər nələrdi.

## Xoşbəxtliyin sirri

Görəsən, harda səhv etdim, nəyi səhv elədim, bu sualları hər zaman özümə verirəm. Bizə mane olan hansı problemlərdir? Bu problemlər bizi qabağa getməyə qoymur. Bəs bu probləmlər bizdən asılıdırmı?

Hər şey bizdən asılı olmalıdır. Yoxsa qabağa gedə bilmərik. Biz heç kimdən və heç nədən asılı olmamalıyıq. Əgər kimdənsə asılı olacağıqsa qabağa getməyi yox, onun tapşırdığı yerlərə addımlamağa məcbur qalacağıq.

Hər zaman irəli addımlamalı deyilik. Bəzən lazım gəldikdə addımı geriyə, bəzən sağa, bəzən də sola atmalıyıq. Bildiyim bir şey var ki, nə olursa olsun, heç vaxt yerimizdə dayanmamalıyıq. Yenilik üçün dağa-daşa çırpılmalı, özümüzü hər vəziyyət üçün hazır saxlamalıyıq.

Düz deyiblər ki, həyat bizə limon verirsə, ondan limonad düzəltməyi bacarmalıyıq.

Nə vaxtsa varlı olmaq istəyirik. Ancaq bunun üçün şəraitimizin olmamasını bəhanə edirik. Günahlandırırıq ki, pulumuz yoxdu, mən həmin şəraitə uyğun deyiləm. Əslində, geriyə dönüb baxdıqda varlanmış bütün insanların əksəriyyətinin belə şəraitsizlikdən çıxdığına şahid olarıq. Bu insanların heç birinin başlamaq üçün maddi vəsaitləri olmamışdı. Çox şeydən məhrum qalmışdılar. Lakin yaranmış

şəraiti dərk edərək həyatın onlara vermiş olduğu bütün fürsətləri düzgün qiymətləndirmişlər. İşə başlamaq üçün heç vaxt əllərində böyük pul olmasını gözləməmişlər. Boş otur-mayıb, gedib o pulu qazanmaq üçün çalışmışlar.

Çalışmışlar...

İşləmək və çalışmaq arasında fərq var. Pul üçün işləmək və öz işini düzəltməkçün pul qazanmaq arasında da fərq var. Pul üçün işləmək dəyərsizdir. Bu sadə dolanışıq üçün aylıq maaş deməkdir. Hansı ki, bütün ayı işlədikdən sonra quru maaşa baxırsan. Əslində isə bu maaşa görə axmaq kimi orabura qaçdığının fərqinə belə varmırsan. Sənin üçün önəmli olan sadəcə həmin maaşı əlində tutmaqdır.

Öz işini düzəltmək üçün pul qazanmaq ətrafda baş verən hər bir şeyi düzgün qiymətləndirə bilmək deməkdir. Puldan baha və vacib şeylərin var olduğunu bilmək demək-dir. Zamanın puldan daha qiymətli olduğunu anlamaqdır. Və ən əsası o pulu əldə etmək üçün axmaq kimi ora-bura qaçıb işləmək yox, ağlını işlədərək o pulu qazanacağını bilməkdir.

Varlılar nəyə görə varlıdır? Çünki, onlar kasıblar kimi düşünmür. Onları varlı edən pulları yox, ağıllarıdır. Özləri də yaxşı bilir ki, bu pulu itirsələr belə yenidən daha da artığını qazana bilərlər.

Varlı insanlar pula yox, ağıla, zamana və yerə qiymət verirlər. Siz yatmış olduğunuz vaxtlarda onlar özlərini təkminləşdirmək üçün

çalışırlar, öz istirahət vaxtlarında belə durmadan düşünüb, öz üzərlərində işləyirlər.

1-ci tip insanların əlinə pul düşən kimi o pulu kefə istirahətə xərcləməyi düşünürlər. Bu tip insanlar cahil və kasıb təbəqə adlanır.

2-ci tip isə varlı və ağıllı təbəqə adlanır. Onlar öz istirahətlərini gördükləri işə görə təyin edirlər, özlərinin işi onların istirahətinə çevrilir. Gördükləri hər bir işi istirahət və əyləncə kimi qiymətləndirə bilirlər. Bax bütün bunlara görə onlar varlanır və varlanmağa da davam edirlər.

Stiv Cobsun belə bir sözü var: bu dünyanı dəyişəcəyinə inanacaq qədər çılğın olanlar onu dəyişənlərdir. Onları söyə bilərsiniz, onları qəbul etməyib bir qırağa ata bilərsiniz, amma qəbul etməli olduğumuz bir şey də var ki, bu insanlar əsl dahilərdir. Çünki, onlar oluna biləcək bütün çılğınlıqları gözə ala bilənlərdir.

Bütün bunları düşünərək gəlib çatırıq başqa bir məsələyə. Qınaqlar.

Bu çılğınları ilk başlarda heç kim qəbul edə bilmir. Onları əzir, başlarından vurmağa, sözlərini kəsməyə çalışırlar. Ancaq onlar nə edirlər? Xeyr, sözlərini dəyişmirlər, olduqları yeri dəyişməyə çalışırlar. Beləcə öz dünyalarını qurmağa başlayırlar. Onlar nə edirlər? Bu daşlardan özlərinə zirvəyə gedən yol üçün pilləkən düzəldirlər. Atılan daşları birləşdirib öz heykəllərini yaratmış olurlar. Sonra nə olur? İn-

sanlar bu zirvəyə baxıb onlara həsəd aparırlar. Yaratmış olduqları heykələ yəni şəxsiyyətə baxıb onlara oxşamağa çalışırlar.

## Gözümüzlə gördüklərimiz

Gözlə görüb düz sandıqlarımız bizi yanıldır. Bizsə öz doğrularımızı bu mövhumlar üzərində qurub, həyatımızı yaşayır və həqiqətlərimizi yaratmağa davam edirik. Həmişə belə olur, düzlər bizi həqiqətlərə aparmır, əksinə bəzən bizi həqiqətlərdən çox uzaqda saxlayır. Ona görə həqiqətlərin iki növü olur: Bizim həqiqətlərimiz və əsl həqiqətlər. Obyektlər və subyektlər. Bizsə hələ də düşü-nüb öz həqiqətlərimizi axtarmağa davam edirik. Bizim həqiqətlərimiz əsl həqiqətlərə nə qədər yaxındır? Bir halda ki, beynimizdə çəkdiyimiz xəritələr bizi məqsədlərə aparmayacaqsa nəyə lazımdır bu xəritələr və prinsiplər. Bəlkə axtardığımızı kimlərdəsə tapmalıyıq? Bəs başqaları nə bilsin ki, bizə nə lazımdır.

Bildiyimiz bir şey var ki, biz prinsiplərlə yaşamalıyıq. Səhv də olsa, düz də olsa bu prinsiplərimizi qoyub özümüzü ayaqda saxlamağa çalışırıq. Bu sanki, sınıq bir stolu dik tutan 4 ayağa bənzəyir. Stol yerində dayana bilsə də üzərinə bir az ağırlıq düşən kimi yerində durmağa çətinlik çəkir. Bəzənsə ayaqlar bu ağırlığa tab gətirmir və tezliklə çökür. Bizlər də bu sınıq stollar kimiyik, ayaqlar yəni prinsiplər nə qədər möhkəm və dayanıqlıdırsa o qədər güclü və dözümlü oluruq.

Bəzən möhkəm və dayanıqlı bir daş hasar oluruq. Hansı ki, yaratmış olduğumuz daş hasarın möhkəmliyinə heyran qalır və bunu heç kim yıxa bilməz deyə düşünürük. Vurulan hər zərbə bizim üçün adi və sıradan görünür.

Kimlərsə də bizim bu arxayınlığımızdan istifadə edərək bizə zərbələr endirməyə başlayırlar. Hər endirilən zərbə bizim üstümüzdə bir boşluq buraxır, içimizi parçalayır, bizi daha çox yaralayır. Biz isə yenə də heç birinə məhəl qoymuruq. Onlar lazım olan boşluqları açdıq-dan sonra ayaqda dursaq belə ən kiçik zərbədən darmadağın ola bilərik. Nə etməliyik? Darmadağın olmağımızı izləməliyikmi, yoxsa həyatın bizə vurmuş olduğu zərbədən təkrar ayağa qalxmalıyıq?

Təkrar zərbə yemək üçün ayağa qalxmalıyıq, daha çox zərbə almalıyıq, daha da möhkəm ayaqda durmalıyıq. Dağılmış və yarım parçaları özümüz yox etməliyik. Bir yerdə möhtəşəm bir tikili tikmək üçün əvvəlcə o yerdə olan hər şeyi sökmək lazımdır. Sonra quracağımız binanın möhkəmliyi üçün yeri qazmağa davam etməliyik. Ancaq bunu düşünərək etməliyik. Nə üçün enmiş olduğumuzun səbəbini bilməliyik. Bilməliyik ki, ikinci dəfə enməyimizə ehtiyac qalmasın. Əgər nə üçün enmiş olduğumuzun səbəbini bilməsək heç vaxt yüksələ bilmərik. Bizi aşağıda görən hər kəs bizim nə vaxtsa bir göydələn kimi yüksələ biləcəyimizdən xəbərsiz bunu etməliyik.

Yalnız hündürlük və möhtəşəmlik önəmli deyil. Daxili görən hər kəs bu gözəlliyə heyran qalmalıdır. Xaricdən bu tikili çoxunun xoşuna gəlsə də, əsl qiymət daxili gördükdən sonra verilir.

Əsas məsələyə gəlib çatırıq. İnsanların nəyi istədiyindən çox, biz nəyi və necə istəyirik? Öz hündürlüyümüzü, möhkəmliyimizi və daxilimizin necə olmasını özümüz müəyyən etməliyik. Biz nə istəyirik və bizə nə lazımdır? Öz istədiyimizi necə əldə edə bilərik və insanlara istədiklərini necə verə bilərik?

## Oynayacağımız oyunlar

Əgər birində nəsə axtarırsansa, o istədiyini gec-tez tapacaqsan. Fərqi yoxdu, o yaxşıdı, ya pisdi. Sən ən çox nə görmək istəyirsən? Hərdən özünə sual ver. Sənə nə lazımdır? Pisliyin içindəki yaxşılıq, ya yaxşılığın içindəki pislik. Önəmli olan odur ki, sən nəyi görmək istəyirsən.

Bilmirəm, bilirsən ya yox, şahmatda belə bir yazılmayan qanun var. Rəqibin hansı daşı oynayacağına fikir ver. Sonra özünə sual ver. O daşı nəyə görə ora oynadı. Düzgün cavabı tapsan qalib sənsən. Yazılır ki, insan şahmat oynadığı zaman rəqibinin əsl simasını görə bilər. Ancaq həyat hər zaman şahmat oyunundan ibarət deyil. Həyat bəzən zərlərdən ibarətdir. Zəri atıb, gedişi hansı oyunu oyna-mağı gözləməkdən ibarətdir. İstədiyin daşı oynamaq üçün zəri gözləməyə məcbur qalarsan. Həyat bəzən zərbələrdən ibarətdir. Dəyən hər zərbədən özünü itirməmək, yerə yıxılsan da yerdə qalmamaqdan ibarətdir. Özünü toplamaq üçün cəld ayağa qalxmaqdan ibarətdir.

Bəlkə də həyat oynayacağın oyunlar toplusudur. Hansı oyunu oynayacağını sən seçirsən.

Sözünü dəyişmə yerini dəyiş deyiblər. Ancaq mən deyirəm ki, nələrisə dəyişməlisən. Səhv olduğunu bildiyin şeyi dəyiş. Bu sənin yerin də ola bilər, sözün də. Səhv olduğunu

bildiyin şey üçün dəyişmə. Mübarizə apar. Belə etdiyin üçün səni sevə də bilərlər, nifrət də edərlər.

Zigmund Freyd deyirdi ki, İnsanlar hər şeyi unuda bilər. Ancaq onlara nə hiss etdirdiyinizi heç vaxt unutmazlar. Bəli, bu sevgi də ola bilər, nifrət də. Nizami deyib ki, ən pisi odur ki, bu iki şey bir insanda birləşə. Onu Gəncəvi ilə səhv salmayın. Məhlə uşağı Nizamini deyirəm. Mənsə deyirəm, ən pisi odur ki, bu iki şey qadına qarşı birləşə.

Heç sevdiyin bir dostuna nifrət etdinmi? Hər hərəkətində daha çox nifrət bəslədin. Nə qədər çox nifrət bəsləsən də, bir o qədər çox sevginin artdığını hiss etdin.

Dözülməz bir şeydi. Sanki, ən sevdiyin kofeni isti-isti içdiyin zaman, mərdimazarın biri gəlib sizi ayırar. Geriyə uzun vaxtdan qalan soyuq bir kofe olar. Sənin isə tək təsəllin Əhməd Batmanın "Soyuq Qəhvə" kitabı olar.

## Adsız yazı

Biz görmədiklərimizdən qorxarıq. Halbuki, görmədiklərimizdən deyil, gördüklərimizdən qorxmalıyıq. Ölüdən yox, diridən qorxun deyiblər. Olmayan və ya başımıza gələn şeylər də bizi çox qorxudur. Halbuki qorxduğumuz şey başımıza gəldikdən sonra anlayarıq nə qədər əhəmiyyətsiz bir şey olduğunu. Düz deyirdi ki, "hər şeyi bilmək üçün təkcə tamaşaçı deyil, həm də aktyor olmalısan". Hər başımıza gələn hadisə bizə bir film kimi görsənməlidir. Bəzən tamaşaçı kürsüsündən qalxıb öz rolunu oynamalısan. Hansı rolda olduğunu da bilməlisən. Rol dediyim sənin xarakterindi. Xarakterini dəyişsən həyatdakı rolunu da dəyişərsən. Çox vaxt rol bizi dəyişər. İstəməsən də o rolu oynamağa məcbur qalarsan. Səni saymayanların sayını sayıb, sənə gülənlərin gününə gülərsən. Sonra istəmədən başqa bir adama çevrilib "niyə belə oldu?" deyə suallar verərsən. Cavab çox sadədir. Prinsiplərin olmalıdı həyatda. Hər dəfə bərk külək əsdikcə səni ayaqda tutan prinsiplərin olmalıdır. Prinsiplər ayaqlardan yox, beyindən başlayır, bütün bədənə yayılır və bütün vücudu idarə edir. Ayaqların əsən küləkdən daha möhkəm olmalıdır. Külək dediyim qabağına çıxan problemlərdi. Bəzən elə bir külək gələr ki, səni oturduğun yerdən götürüb çox uzaqlara uçur-dar. Gözlərini açdıqda tamam başqa yerdəsən. Olduğun yerin insanları

başqa, qaydaları başqa, adət-ənənələri başqa. Məcbursan başqa rolu oynayasan. Düşdüyün mühitə uyğunlaşmalısan. Bacarsan mühiti özünə uyğunlaşdır. Amma özün uyğunlaşmasan, heç kimi uyğunlaşdıra bilmərsən. Görməlisən ki, qurd kimdi çaqqal kimdi. Hiss etməlisən ki, meşənin çaqqalı kimdi. Çaqqallar gec bilinər. Hiss edərək başa düşərsən ki, yeni düşdüyün yerdə külək əsmir, fırtına qopur. Boğula bilərsən. Özünü daha çox qorumalısan. Unutmamalısan, bilməlisən ki, niyə olduğun yerlərdəsən. Heç nə boş-boşuna olmur. Səni buralarda tutan səbəblər var. Bacarsan o səbəbləri tap. Amma önəmli olan bu vaxtdan sonra nələri etməyindir. Zaman keçdikcə daralır, sən isə öz məqsədlərinə doğru bir addım daha atırsan.

## Dahiliyin Dəlilik Əlamətləri

Keçmişə dönüb baxdıqda bütün dahilərin öz dəlilik hekayəsi olduğunu görərik. Hansı ki, adi insanlara görə, normal olmayan, olunması mümkün bütün çılğınlıqları gözə ala bilən insanlar olublar. Bu cür insanlardan Albert Eynşteyn, Nikola Tesla, Stiv Cobs, Leonardo Da Vinçi və başqa insanların adlarını misal gətirmək olar. Yaşadığı cəmiyyətə uyğunlaşa bilməyib, o cəmiyyəti özlərinə uyğunlaşdırırlar bu cür insanlar.

Dahilik nəyə deyilir? Ağılı və dəliliyini (yəni çılğınlığı) bir arada istifadə edib öz həyatlarını quran insanlara dahilər deyilir. Bu özəlliyinə görə insanlar 3 cür olur.

1. Ağıllı insanlar.
2. Dəlilər.
3. Dahilər.

Ağılı insanlar düşdüyü mühitə uyğunlaşır. Dəlilər nə etdiklərini bilmir və normal mühitdə yaşaya bilmir. Dahilərsə düşdüyü mühitə uyğunlaşa bilməsələr də, o mühiti özlərinə uyğunlaşdırmağa çalışır. Nə etdiklərini çox gözəl bilir bu cür insanlar. Buna görə də bütün çılğınlıqları gözə ala bilirlər. Normal mühit onlara görə deyil. Qanları hər zaman qaynayır. Dahiliklə dəlilik arasında bir addım məsafə var deyiblər.

Cəmiyyətdə hər zaman ağıllı insanlar özlərinə yer tutsalar da o cəmiyyəti irəli aparan bu

dahilər olub. Onlar əsrin dahiləri kimi adlarını tarixə yazdırıblar. Günəşin doğuşunu, aylı gecədə olan dərin sakitliyi və yaşama həzlərini heç bir zaman itirməyən bu insanlar nə qədər çətin olsa da, öz rahat mühitlərindən qırağa çıxmağa çalışıblar. Əsl həyatları da elə bundan sonra başlayıb.

Qismət və taleyin qurduğu oyunla razılaşırsansa özünü bir balıq kimi dənizin axarına buraxmış hesab elə. Dalğa səni hara aparırsa razılaşmağa çalış. Amma unutma ki, əsl ləzzət küləkli havada dalğalarla mübarizə aparmağı bacarmaqdır. Bəlkə də sən istədiyin yerə gedib çata bilmədin. Bəlkə sən də bir gün bir qayaya çırpıldın. İstədiyin yerə çata bilməsən də, səni istəmədiyin yerdə heç kim saxlaya bilməz. Daş qayaya çırpılmaqdan qorxma, onsuz da bir gün hamımız bu qayalara çırpılırıq. Önəmli olan çırpıldıqdan sonra təkrar ayağa qalxıb mübarizə aparmağa çalışmaqdır. Bir gün bu qayalar sənə görə adi və sıradan görünəcəklər. Dəyən heç bir zərbə səni incitməyəcək, yaralamayacaq. Heç bir yara səni ağrıtmayacaq. Bəlkə də ağrı verəcək. Ancaq sən heç bir şey hiss etməyəcəksən.

Bu yazdıqlarımı oxuduqdan sonra dahi olmaq üçün gedib özünü qayaya, daşa çırpmağa çalışma. Əsl qayalar və daşlar sənin yaşadığın mühitdə, iş yerində məktəbdə, universitetdə qarşına çıxacaq. Özünü küləyə vermə. Külək dediyim sənin qarşına çıxan hadisələrdir.

Onlara nə cür reaksiya verəcəyini özün bilməlisən. Bu küləyi sən bir problem kimi də görə bilərsən, bir fürsət kimi də qiymətləndirə bilərsən. Hansını seçəcəyin, həyata baxışını necə görməyindən asılıdır. Səni etdiyin şeylərə görə dəli də hesab edə bilərlər. Sən axmaqca addımlar da ata bilərsən. Əsas olan odur ki, etdiyin səhvlərdən nəticə çıxarıb içindəki dahini görə biləsən.

# İÇİNDƏKİLƏR

## Ön söz əvəzi

Qurulan xəyallarımız *4*

### Düşüncələr

Həyat şəkillərdən ibarətdir 8

Boş dünya 10

Xoşbəxtliyin sirri 12

Gözümüzlə gördüklərimiz 16

Oynayacağımız oyunlar 19

Adsız yazı 21

## Şeirlər

Bəzi insanlar var 26

Satılan həqiqətlər 28

Aşiqi Canan 30

Tikanlı məftil 32

### Qısa Hekayələr

Siqaret kötüyü 36

Cənnət bağı 38

Bir növ sevgi 39

Kadının içindəki yaraları 42

Ruhən ölmüşlər 44

Günəşə məktub 47

Təsvir 50

## Hekayələr

Satılan həqiqətlər 54

Doktor Morqerin laboratoriyası 59

Mavi gözlü mələk 72

### Hekayələrdən ibarət roman

Elyasın hekayəsi 93

## Roman

Qəfəsdəki Məhbuslar 133

“Hərbidən Qeydlər” e-kitabının tam variantı 1-ci nüsxənin satışı bitdikdən sonra paylaşılacaq. “Hərbidən Qeydlər”in elektron variantının yarımçıq buraxılması oxucuların marağına hansı dərəcədə səbəb olduğunu nəzərə almaq üçün yayınlanıb. Nəzərinizə çatdıraq ki, hal-hazırda oxuduğunuz elektron variantda yalnız “düşüncələr” yarımbaşlığı paylaşılıb. Kitabda həmçinin sərbəst vəzndə yazılmış “şeirlər”, “qısa hekayələr”, “hekayələr” və “hekayələrdən ibarət roman” paylaşılıb. “Qəfəsdəki Məhbuslar” romanı növbəti kitabın sujet xəttidir ki, “Hərbidən Qeydlər“ kitabında, siz bu roman barəsində də qısa tanışlıq yarada bilərsiniz.

Bölgələrimizdə yaşayan şəxslərin diqqətinə çatdıraq ki, poçt vasitəsilə çatdırılma xidmətimiz mövcuddur.

Çatdırılma üçün əlaqə nömrəmiz:

012 498 79 89 ;
055 877 24 44 ;

**Ünvan:**
KİTABEVİM.AZ | Kitab və ofis ləvazimatlarının satışı 1. Nəsimi r., Puşkin k., 32 a, AK center II mərtəbə (28 may M.) 2. Yasamal r., Zivərbəy Əhmədbəyov küç 2., (Nizami Metrosu yaxınlığında)



hedefnesrleri
@hedefnesrleri
NƏŞRİYYATI
Kitabların onlayn satış ünvanı
www.kitabevim.az
Mütaliənizin ən rahat ünvanı!
www.hedefnesrleri.az
ISBN: 902-163-090-547-4
9 021630 905474
₼ 3.50

URAQAN (EMİN ABDULLAYEV)
HƏRBİDƏN QEYDLƏR

URAQAN
(EMİN ABDULLAYEV)

# HƏRBİDƏN QEYDLƏR

MƏQALƏLƏR VƏ HEKAYƏLƏR TOPLUSU




URAQAN
(Emin Abdullayev)

HƏRBİDƏN
QEYDLƏR



KİTABEVİM.AZ
*Kitab və digər çap məhsullarının satışı*
**Ünvan:** Nəsimi r., Puşkin k., 26 a, AK center II mərtəbə (28 may M)
**Tel.:** (+99412) 498-79-89,
**Mob.:** (+99455) 877-24-44
- zəng etməklə sifariş
- sayt üzərindən sifariş
- real mağazadan sifariş